# Qalib Ordunun bayramı

## Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 103-cü ili tamam olur



**Azərbaycan müstəqilliyini bərpa etdikdən bu günə qədər ötən vaxt ərzində ilk dəfədir ki, ölkə vətəndaşları, hərbçilərimiz Silahlı Qüvvələr Gününü indiki kimi qalib əhval-ruhiyyədə qeyd edir. Ötən il sentyabrın 27-də başlayan və noyabrın 10-a qədər davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu zəfər tariximizin şanlı səhifəsini yaratdı. Dünyanın 50 ən güclü ordusu sıralarında yer alan Silahlı Qüvvələrimizin şəxsi heyəti ötən ilin payızında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bütün cəbhəboyu əks-hücuma keçdi.**

Cəmi 44 gün ərzində işğalçı Ermənistan ordusu darmadağın edildi, düşmənin beli qırıldı, torpaqlarımız yağı tapdağından azad edildi. Bununla da hərbçilərimiz 30 illik işğala son qoydu, Azərbaycanın ərazi bütövlüyü təmin olundu. 26 İyun Silahlı Qüvvələr Günündə şanlı ordumuzun keçdiyi bu döyüş yolu, ordu quruculuğu sahəsində indiyə qədər atılan addımlar bir daha xatırlanır, Vətən torpaqlarının azadlığı uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan hərbçilərimizin ruhu hörmətlə anılır.

### ORDUMUZUN 15 GENERALI GÜLLƏLƏNDİ

Məlumat üçün qeyd edək ki, 26 İyun Silahlı Qüvvələr Gününün təsis edilməsi 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusunun yaradılması ilə ələqədardır. Həmin il mayın 28-də qəbul edilmiş ”İstiqlal bəyannaməsi”ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk Müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi. Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bildi. 1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu, ordumuzun 15 generalı bolşeviklər tərəfindən güllələndi.

### ŞƏXSİ HEYƏTİN MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIĞI

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Lakin Ordu quruculuğuna yalnız 1993-cü ildən başlamaq mümkün oldu. Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə gətirilməsindən az müddət sonra ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Bu dahi insanın, vaxtilə ayrı-ayrı şəxslərin, bəzi siyasi partiyaların maraqlarına, dövlət çevrilişi məqsədlərinə xidmət edən silahlı dəstələri buraxmaqla, onların fəaliyyətini qanundankənar elan etməklə başladığı ordu quruculuğunun effektiv nəticələri artıq 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində özünü göstərməyə başladı. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilən uğurlu Horadiz əməliyyatı ilə düşmənə ağır zərbə vuruldu, Füzuli rayonunun bir çox yaşayış məntəqələri Ermənistan işğalçı qüvvələrindən azad edildi. 1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra ordu quruculuğu ilə bağlı daha geniş islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.



### SİLAHLI QÜVVƏLƏRİN MÜKƏMMƏL QANUNVERİCİLİK BAZASI

Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 İyun Silahlı Qüvvələr Günü elan olundu. Onun hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il yanvarın 20-də imzaladığı fərmanla Azərbaycanda Hərbi Akademiya yaradıldı. Ümummilli liderin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı.

### APREL DÖYÜŞLƏRİ

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordu quruculuğuna xüsusi diqqətlə yanaşmağın bəhrəsi olaraq 2016-cı ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri yeni zəfərə imza atdı. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Bir neçə gün davam edən döyüşlər nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı. Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

### GÜNNÜT ZƏFƏRİ

2018-ci ilin mayında isə Azərbaycan Ordusu xalqımıza Günnüt zəfərini yaşatdı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu. Bir qədər əvvəl vurğuladığımız kimi, 2020-ci ilin 27 sentyabr -10 noyabr tarixlərini əhatə edən 44 günlük Vətən Müharibəsində Azərbaycan Silahlı Qüvvələri 30 illik işğala son qoydu. Bununla da Ordumuz qarşısına qoyulan vəzifəni uğurla icra edə bildi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın iştirak etdiyi Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

### ZƏFƏR PARADI

”Dəmir yumruq” əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına çıxış edən Ali Baş Komandan, Prezident İlham Əliyev Azadlıq meydanında keçirilən bu möhtəşəm tədbirin xüsusi önəmini qeyd edib. Bildirib ki, bu tarixi hadisəni Azərbaycan xalqı qürurla yaşayır: ”Bu zəfər, tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyin nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”.

**Rufik İSMAYILOV**